**«Peşə hazırlığına strateji yanaşma mövcuddur»**

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru Əlikram Abdullayev:

«Vergilər Nazirliyində kadrların ixtisasının artırılmasına və peşə hazırlığının yüksəldilməsinə strateji yanaşma mövcuddur. Tədris Mərkəzinin maddi-texniki bazası çox yüksəkdir. Burada tədris üçün hər cür lazımi şərait yaradılıb. Yataqxana, tədris, idman kompleksləri bir-birini tamamlayır. Diqqət çəkən vacib məsələlərdən biri də tədrisə innovativ yanaşmadır. Bu prosesi təşkil edən insanların novatorluğu aydın görünür. Ümumilikdə, belə mərkəzlərin yaradılmasını və fəaliyyətini tam dəstəkləyirəm.

Tədris Mərkəzi həm də faydalı müzakirələrin aparılması üçün çox yaxşı məkandır. Burada müxtəlif mövzularda seminarlar, konfranslar təşkil olunur, səmərəli müzakirələr aparılır. Bu da öz növbəsində iqtisadi fəaliyyət subyektlərinin qarşılıqlı faydalı əməkdaşlığına, səmərəli təşəbbüslərin irəli sürülməsinə imkan yaradır».